**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№ 376/1** **02 may 2025-ci il**

## Tender və kotirovkalarda Auditorlar Palatasının üzvləri tərəfindən yol verilmiş neqativ halların aradan qaldırılmasına dair Müraciət barədə

Son illərdə auditor xidməti bazarında və xüsusilə dövlət satınalmaları zamanı xidmət haqqı məbləğlərini yolverilməz dərəcədə aşağı salmaqla Auditorlar Palatasının digər üzvlərinə qarşı haqsız rəqabətin və dempinq hallarının artmasının və keyfiyyətsiz auditor xidməti göstərilməsinin qarşısının alınmasını təmin etmək və Auditorlar Palatasının sədr müavininin 2025-ci il 19 mart tarixli 10-1/3-3-13/2025-ci il nömrəli “Tender və kotirovkalarda auditor xidmətinin satınalınmasına dair “Dəyirmi masa”nın nəticələri barədə” Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planının 7-ci “Tender və kotirovkalarda Auditorlar Palatasının üzvləri tərəfindən yol verilmiş neqativ halların aradan qaldırılmasına dair onlara xəbərdarlıq məktublarının göndərilməsi” bəndinin icrasını təmin etmək məqsədilə Palatanın icraçı direktoru S.Gülməmmədov, Aparatın rəhbəri Q.Bayramov və Auditin hüquqi tənzimlənməsi və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə idarəsinin rəisi E.İbrahimov tərəfindən hazırlanmış Tender və kotirovkalarda Auditorlar Palatasının üzvləri tərəfindən yol verilmiş neqativ halların aradan qaldırılmasına dair Müraciətin layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Tender və kotirovkalarda Auditorlar Palatasının üzvləri tərəfindən yol verilmiş neqativ halların aradan qaldırılmasına dair Müraciətin layihəsi bəyənilsin (əlavə olunur).
2. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, bir həftə müddətində bu qərarın 1-ci bəndində nəzərdə tutulmuş Müraciəti Auditorlar Palatasının Şurası adından Palatanın üzvlərinə göndərilməsi təmin edilsin.
5. Bu Qərarın mətninin Auditorlar Palatasının internet saytında yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**